

# Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestr

Hələ bu orkestrə Üzeyir bəyin sağlığında onun adı verilmişdir.

1920-ci ildə N.Nərimanovun və Xalq M aarif Komissarı D.Bünyadzadənin imzaladığı dekretə əsasən Azərbaycanda müstəqil Dövlət Simfonik orkestri yaradılmışdır. İlk illərdə bu orkestrlə dirijorlardan M. Çernyaxovski, U.Qoldşteyn, A.Stolerman, L.Şteynberq, A.Orlov və b. işləmişlər. 1938-ci ildə həmin orkestr Dövlət Filarmoniyasının nəzdində yenidən yaradılan simfonik orkestrin əsasını təşkil etmişdir. İlk dirijoru Nikolay Anisiv idi. 1944-cü ildə orkestrə Üzeyir Hacıbəylinin adı verilmişdir. Uzun illər orkestrin bədii rəhbəri və baş dirijoru Niyazi olmuşdur. Azərbaycan bəstəkarlarının simfonik musiqisinin yüksək profesionallıqla təbliğində orkestrin müstəsna xidməti var. Müxtəlif illərdə orkestrlə N.Raxlin, A.Qauk, K.İvanov, L.Ginzburq, K.Zanderlinq, A.Yansons, Y.Fayer, O.Dmitriadi, A.Staseviç, M. Paverman, K.Eliasberq kimi tanınmış dirijorlar işləmişlər. Azərbaycan musiqiçilərindən Ə.İsrafilzadə, Ç.Hacıbəyov, K.Abdullayev, Ə.Bədəlbəyli, Ə.Həsənov, F.Mustafayev, V.Adıgözəlov orkestrə dirijorluq etmişlər. 1997-ci ildən orkestrin bədii rəhbəri və baş dirijoru R.Abdullayevdir. Ü. Hacıbəylinin əsərləri orkestrin repertuarında mühüm yer tutur.

(Üzeyir Hacıbəyli ensiklopediyası. Bakı: Şərq-Qərb,2008, Səh.22-23).